# Tarix yazanları yaşatmalıyıq

Hər insan ömrü bir dastan, hər dastan isə bir tarix. Ancaq elə ömürlər var ki, bir insan ömrü belə böyük bir epopeya. Epopeya - yeni uzun bir epik roman növü,xalqın həyatını və tarixi hadisələrini əks etdirir. Elə insanlar da var ki, onların həyatı ayrıca bir epopeyadır! Belə yaşam tərzi tarixə nəzər saldıqca dərk edilir. Tarixini öyrənmək isə hər kəsin insanlıq borcu.

Qəhrəmanlıq xalqımızın soykökünə məxsus. Bu, tarixin silinməz izlərindən aydındır. Tarixi keçmişi olan hər bir xalq əsrlər yaşar və keçmişindən göyərər qəhrəmanlıq, qorxmazlıq, qürur Axı torpaq yetişdirir və yaşadır!

Tarixi xronologiyaya baxdıqca, əsrlərdə xalqımızın igidlər oylağı olduğunu görürük. Tarixi müharibələrin hər biri insan əməlinin "məhsuludur". İgidlər isə xalqın talismanları, xalqı xalq edən, tarixi tarix edənlərdir. Qədim Qəbələnin əfsanəvi qəhrəman övladı Nurməmməd Xəlilov kimi.

Dünya bir pəncərədir, hər gələn baxar, gedər. Ancaq Nurməmməd dayı bu pəncərəyə yalnız baxıb keçmədi, bu pəncərədən tarixə boylanan bir ömür salnaməsi yazdı, keçdi...

İkinci Dünya Müharibəsi tarixin ən böyük müharibələrindən biridir. Bu müharibə 1939-cu il sentyabrın 1-də nasist Almaniyasının Polşa üzərinə hücumu ilə başladı. 1945-ci il sentyabrın 2-sində Yaponiyanın təslim olması ilə başa çatdı.

Müharibə iştirakçıları iki cəbhəyə bölünmüşdü: nasist bloku (əsas iştirakçılar Almaniya İtaliya və Yaponiya) və antihitler koalisiyası (əsas iştirakçılar SSRİ, ABŞ,



Britaniya, Fransa). 50-dən çox dövlət antifaşist koalisiyasında birləşdi, dünyanı faşizm taunundan xilas etdi.

1939 - 1945-ci illər müharibəsində SSRİ- nin qazandığı qələbədə Azərbaycanın da böyük payı vardır. Azərbaycanın 600 mindən çox oğul və qızı (o dövrdə Vətən dedikdə SSRİ nəzərdə tutulurdu) Böyük Vətən Müharibəsi cəbhələrində döyüşmüş, onların yarısı ümumi qələbəmiz uğrunda canlarından keçmişlər. Azərbaycan diviziyası Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, bəzi həmvətənlərimiz isə partizan dəstələrinin tərkibində vuruşmuşlar.

Nürməmməd dayı da bu müharibədə igidliklə döyüşmüşdür. O, 1923-cü ildə Qəbələnin Soltannuxa kəndində doğulmuşdu. Orta təhsilini də öz doğma kəndində, kənd məktəbində almışdı. Gəncliyi ağır müharibə şəraitinə təsadüf edən Nurməmməd dayı 1942-ci il martın 8-də orduya getmiş, təlimdən sonra döyüşlərə qatılmışdır. O, Mozdok, Mariupol, Varşava, Kerç boğazı və bir sözlə, Berlinədək döyüşmüşdür. Onun döyüş yolu çox zəngindir, kitablar yazılacaq qədər...

Müharibədən sonra öz doğma elinə qayıdan Nürməmməd dayı M.F.Axundov adına kolxozda, sovetlikdə katib, kənd məktəbində əmək təlimi müəllimi, rayon statistika idarəsində mühasib işləmişdir. Uzun müddət rayon Ağsaqqallar şurasının sədri olmuşdur. Onu da qeyd edək ki, o, çox nümunəvi ailə başçısı olmuşdur. 1947-ci ildə Sadəgül Əhməd qızı ilə ailə qurmuşdur. Ailədə 8 uşaq doğulmuş, böyümüşdür. Onun 11 nəvəsi, 5 nəticəsi vardır. Nurməmməd dayı 1993-cü ilin aprel ayının 10-da dünyasını dəyişmişdir.

Nurməmməd dayının şəklinə baxdıqca baxışlarından oxudum gözəl şairimiz Məmməd Araz sözlərini:

**...Öz diqtəmin buyruğunda**
**qul oldum,**
**Vətən göyü göylərində**
**duruldum,**
**Bu da belə bir ömürdü,**
**yaşadım!**

Yaşadığı ömürdə gülləri yox, gül çələngini, dağlarda şəlalə kimi çağlamağı, qayaların başında qartal tək döyüşməyi, səyyah olub həyata seyrçi olmaq yox, bu həyatı həyat kimi yaşamağı xoşlardı və elə də yaşadı. Belə insanların ömür yolu gəncliyə örnək oldu. Onlar yazan tarixi bu günkü gənclik yenidən yazdı və öz tarixi soykökünün qəhrəmanlıq missiyasını təsdiqlədi. Bu tarixi soykökü, bu soykökün müdavimlərini əbədi yaşatmalı, unutmamalıyıq. Çünki onları unutmaq, tarixi unutmaqdır.

Tarixi soykökümüzü yaşatmaq üçün tarix yazanları yaşatmalıyıq!

**BİBİXANIM.**

# Doğum günü olan şəhidlər

**Elməddin Məhəmməd oğlu Mustafayev** 2001-ci ildə Qəbələ şəhərində doğulmuş, 2020-ci il oktyabr ayının 10-da Füzuli uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.



**Ağaşirin Babayev** 2001-ci il mayın 16-da rayonumuzun Qəmərvan kəndində doğulmuşdur. Orta təhsilini Qəbələ şəhər 3 saylı orta məktəbində başa vurmuşdur.



2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə yollanmışdır. Vətən Müharibəsi başladıqda Ağaşirin də döyüşlərə qatılmış və mərdliklə vuruşmuşdur. O, noyabrın 3-də Xocavənddə aldığı qəlpə yarasından şəhid olmuşdur. Nəşi 15 gün sonra, 19 noyabrda Qəbələ şəhər qəbristanlığında dəfn olünmüşdür.

**Coşqun Ənvər oğlu Bayramov** 1991-ci il mayın 25-də rayonumuzun Qəmərvan kəndində doğulmuşdur.



2020-ci il sentyabr ayının 21-dən hərbi təlimlərə qatılmış, ayın 27-də başlanan Qisas müharibəsinə - döyüş meydanına atılmışdır. Torpaqlarımızın azadlığı uğrunda döyüşən Coşqun oktyabrın 6-da Talış - Suqovuşan uğrunda gedən döyüşlərdə şəhadətə qovuşmuşdur.

**Şəhla XƏLİLQIZI,**
**“Qəbələ”nin**
**ştatdankənar müxbiri.**

# Qələbə qazanıldı




Azərbaycan Respublikasının Qəbələ rayonu ilə qardaşlaşmış Belarus Respublikasının Qrodno şəhəri arasında 2025-ci ilin Tədbirlər Planına əsasən 22 - 23 may tarixlərdə Qrodno şəhərində kişilər arasında keçirilən beynəlxalq güləş turnirində Qəbələ idmançıları da iştirak etmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və “Qəbələ İnşaat” MMC-nin dəstəyi ilə məşqçi Fərid Mustafayevin rəhbərliyi altında yarışlarda iştirak edən 5 nəfər güləşçimizdən 2 nəfər - İsmayıl Əliyarov və Əhməd Əhmədli müvafiq olaraq 65 və 70 kq çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl medala layiq görülmüşlər. İdmançılarımızı qələbə münasibəti ilə təbrik edir, idman həyatlarında onlara uğurlar arzulayırıq.

# İntellektual oyun

Qəbələ rayonunda «Konstitusiya və Suverenlik İli» münasibəti ilə «Nə? Harada? Nə zaman?» İntellektual oyunu üzrə rayon birinciliyi keçirilib.

Birincilik 14 may 2025-ci il tarixində Şəki - Zaqatala Regional Gənclər və İdman İdarəsinin və Qəbələ rayon Təhsil sektorunun birgə təşkilatçılığı ilə Qəbələ rayon 1 saylı tam orta məktəində keçirilib.

Gərgin mübarizə şəraitində keçən yarışda

I yeri Qəbələ rayon 4 saylı tam orta məktəb,

II yeri Qəbələ rayon 5 saylı tam orta məktəb,

III yeri Qəbələ rayon 2 saylı tam orta məktəb tutub.

Qalib gələn komandalar Şəki - Zaqatala Regional Gənclər və İdman İdarəsinin diplom və kuboku ilə mükafatlandırılıb.

Qızlar və oğlanlar arasında keçirilən voleybol yarışında qızlardan ibarət komanda qalib gələrək kuboka sahib olmuşdur.

Gözəl oyun üçün müəllim və şagirdlərimizə təşəkkür edirik.





## QƏBƏLƏ qəzetinə

**2025-ci ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**


# İTMİŞDİR

Qəbələ şəhər sakini **Zeynalov Kərim Akif oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Həmzəli kənd sakini **Əliyev Elvin Şakir oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PHŞ-in direktoru Ceyhun Əhmədov RMX-nin həkim dermotolqu **Arzu Qasımova** həyat yoldaşı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PHŞ-in səhiyyə kollektivi iş yoldaşları həkim dermotoloq **Arzu Qasımova** həyat yoldaşı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Şəhər 5 saylı məktəbin direktoru Zərnişan Ağamirzəyeva məktəbin kollektivi adından rayon təhsil şöbəsinin müdiri **Arifə Bayramovaya** bacısı

**ŞƏMSİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Redaktor
Azad Məmmədov.

TƏSİSÇİ:
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1050*